AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


# QOBUSTAN: ARZULARIN İŞIĞINDA

**(əvvəli ötən saylarımızda)**

**Rayonun Ərəbşalbaş kəndində yerli sahibkar tərəfindən 500 yerlik şadlıq evi tikilib istifadəyə verilmişdir.**

Daxili imkanlar hesabına Qobustan şəhərində 100 yerlik uşaq bağçası inşa edilmiş, inventar və avadanlıqlarla təmin olunmuşdur.Yaxın günlərdə istifadəyə veriləcəkdir.

Qobustan şəhərində "Kapitalbank"ın filialı üçün inzibati binanın,Cəmcəmli kəndində tibb məntəqəsinin tikintisi davam edir.

Qobustan şəhər 3 saylı tam orta məktəbi üçün yeni inzibati binanın tikintisi məqsədilə müvafiq sənədlər hazırlanmaqdadır.





### *Səhiyyə, gənclər və idman sahəsində görülən işlər*

2016-cı ilin 9 ayı rayonda səhiyyə, gənclər və idman sahəsində də mühüm tədbirlərlə, ciddi uğurlarla yadda qalmışdır.

Məlum olduğu kimi bu il də cənab Prezidentin tapşırığı əsasında əhalinin tibbi müayinəsi aparılmışdır. Rayon üzrə 25615nəfər tibbi müayinədən keçmiş, 1814 nəfər ambulator müayinəyə, 75 nəfər stasionar müayinəyə cəlb edilmiş, 10 nəfər cərrahi əməliyyat olunmuş, 106 nəfər isə müayinə üçün Bakı şəhərinə göndərilmişdir.

İdman sahəsində Ukraynanın Xarkov şəhərində Karate üzrə keçirilən dünya çempionatında rayon idmançısı İbad Rzazadə uğurla çıxış edərək 2 qat dünya çempionu adına layiq görülmüşdür.

Cüdo idman növünün rayonda yeni yaranmasına baxmayaraq, artıq idmançılar respublika yarışlarından əlavə beynəlxalq turnirlərdə də uğur qazanmışlar. Perspektivli cüdoçu Babarəhim Mirzəyev aprel 2016-cı il tarixində Türkiyənin Adana şəhərində "Adana kurtuluş kupası Türk cumhuriyyetleri uluslararası Cüdo turniri"ndə də uğurla çıxış edərək öz çəki dərəcəsində bütün rəqiblərinə qalib gəlmiş və fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

Ağır atletika üzrə yeniyetmələr arasında ötən ay keçirilən ölkə birinciliyində isə gənc idmançı Kamran Ağalarov ona bəslənilən ümidləri doğruldaraq 1-ci yerə layiq görülmüşdür.

İdman sahəsində qazanılan uğurlara baxmayaraq nöqsanlar da mövcuddur.2013-cü ildə istifadəyə verilmiş idman kompleksinin imkanlarından lazımınca istifadə olunmur. Burada yaradılan klubların fəaliyyəti qənaətbəxş deyildir.İcra hakimiyyətinin müvafiq şöbəsi, Gənclər və İdman İdarəsi bu sahədə fəaliyyətini gücləndirməlidir. Rayonda idmanın kütləviliyi artırılmalı, İdman Kompleksinin imkanlarından da rayon gəncləri tam şəkildə istifadə etməlidirlər.

### *Xüsusi əhəmiyyət daşıyan məsələ: vətəndaş müraciətlərinə həssaslıq*

Vətəndaş müraciətlərinə baxılması daim nəzarətdə saxlanılır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun rayonda görülmüş işlər, açılmış yeni iş yerləri, mərkəzi İcra hakimiyyəti orqanları tərəfindən keçirilən qəbullar, İcra hakimiyyəti başçısının bütün xidmət təşkilatları ilə birlikdə rayonun bütün kəndlərini əhatə edən səyyar qəbulların keçirilməsi, problemlərin yerindəcə öyrənilib aradan qaldırılması, şəffaflığın təmin olunması,şikayət xarakterli müraciətlərin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdur. Təkcə bu ilin 9 ayında rayonda 5 mərkəzi İcra hakimiyyəti orqanının rəhbəri tərəfindən qəbul görüş, İcra hakimiyyəti başçısı tərəfindən isə yaşayış mövcud olan 29 yaşayış məntəqəsində 34 səyyar qəbul görüş keçirilmişdir. Vətəndaşları narahat edən problemlər yerindəcə öyrənilərək həlli üçün müvafiq tədbirlər görülmüşdür.

**"... Azərbaycan bölgədə sabitlik, təhlükəsizlik adasıdır, inkişaf məkanıdır. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayırlar. Bu da bizim böyük üstünlüyümüzdür, böyük dəyərimizdir. Biz bunu qiymətləndirməliyik və ölkəmizdə yaşayan bütün xalqlar arasında bu qardaşlığı, dostluğu daha da möhkəmləndirməliyik. Bu, bəlkə də bizim ən böyük sərvətimizdir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Cənab Prezidentin təşəbbüsü ilə "ASAN" xidmət artıq bölgələrdə olaraq əhaliyə nümunəvi xidmətlər göstərir. 08.02.2016-cı il tarixdən 07.03.2016-cı il tarixə kimi səyyar "Asan xidmət" rayonda olmuş, müraciət etmiş 2000-dən artıq vətəndaşa nümunəvi xidmət göstərilmişdir.

### *Qarşıda duran əsas vəzifələr*

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı qarşıda duran vəzifələr haqqında danışarkən deyir:

- Rayonumuzun maliyyə müstəqilliyinin əldə olunması, ərzaq təminatının yaxşılaşdırılması məqsədilə tərəfimizdən tədbirlər hazırlanır və həyata keçirilməsi nəzərdə tutulur. Biz kənd təsərrafütına münasibəti köklü şəkildə dəyişməliyik. Torpaqlardan daha səmərəli istifadə olunmalıdır. Eyni zamanda biz emal sənayesinin inkişafı üçün çalışmalıyıq. Kifayət qədər taxıl məhsullarına, ət və süd məhsullarına malik olmağımıza baxmayaraq rayonda bir dənə də olsun kolbasa və kolbasa məhsulları, müxtəlif növ şirniyyat hazırlayan müəssisə, unu qablaşdırmaqla əmtəəlik məhsul hazırlayan müasir un dəyirmanları, kərə yağı istehsal edən müəssisələrimiz yoxdur. Biz əsasən investorları bu sahələrə cəlb etməklə həm yeni iş yerlərinin yaradılmasına, həm də rayonun maliyyə müstəqilliyinin əldə edilməsinə, digər sahələrin daha da inkişaf etməsinə nail ola bilərik.

**Cənab Prezidentimiz tərəfindən verilmiş tövsiyə və tapşırıqlar bizim üçün bir fəaliyyət planı olacaq, nəzərdə tutulmuş bütün tədbirlər vaxtında və yüksək keyfiyyətlə həyata keçiriləcəkdir. Bu yolda bütün imkanlarımızı səfərbər edəcəyik.**

***Məzahir ƏHMƏDZADƏ***